**“Təhlükəli yoluxucu xəstəliklərin siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“İmmiqrasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 114 nömrəli Fərmanının 2-ci hissəsinin üçüncü abzasına və “Miqrasiya idarəetmə sisteminin inkişafı və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2008-ci il 24 iyun tarixli 658-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 805 nömrəli Fərmanının 5.2.2-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Təhlükəli yoluxucu xəstəliklərin siyahısı” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 30 iyun 2011-ci il
105

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2011-ci il 30 iyun tarixli 105 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Təhlükəli yoluxucu xəstəliklərin**

**S İ Y A H I S I**

~~1. Hemorragik virus xəstəlikləri~~

~~2. Sarı qızdırma~~[1]

3. İnsanın immunçatışmazlığı virusu infeksiyası

4. B və C hepatitləri.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 fevral 2013-cü il tarixli **31** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 2 mart 2013-cü il, 48; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 02, maddə 200**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 27 fevral 2013-cü il tarixli **31** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**“Azərbaycan” qəzeti, 2 mart 2013-cü il, 48; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 02, maddə 200**) ilə “Təhlükəli yoluxucu xəstəliklərin siyahısı”nın 1-ci və 2-ci hissələri ləğv edilmişdir.